5 iyun Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günüdür

“Kənd təsərrüfatı ili”ndə meliorasiya və su təsərrüfatı sahəsində işlər uğurla davam etdirilir

Hazırda ölkədə əkin altında həyətyanı sahələr də daxil olmaqla 1 milyon 984 min hektar sahə istifadə olunur. Bunun 1 milyon 435 min hektarı suvarma şəbəkələri və qurğuları ilə təchiz olunmuş suvarılan torpaqlardır. Suvarılan torpaqların 610 min hektarı kollektor-drenaj sistemləri ilə təchiz olunmuşdur.

Suvarılan və meliorasiya olunmuş torpaqlardan yüksək və sabit məhsuldarlıq götürmək üçün, burada mütəmadi olaraq müvafiq irriqasiya-meliorasiya tədbirlərinin aparılması və onların səmərəliliyinin artırılması tələb olunur.

Taxtakörpü su anbarının açılışı

Azərbaycanda uzun illərdən bəri böyük zəhmət və külli miqdarda vəsait hesabına su axımını bölüşdürən və tənzimləyən irriqasiya sistemlərindən, kollektor-drenaj şəbəkələrindən, nasos stansiyalarından və su anbarlarından ibarət geniş və mürəkkəb meliorasiya və su təsərrüfatı kompleksi fəaliyyət göstərir. Bu kompleksin əsas hissəsi ulu öndərimiz Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə onun şəxsi təşəbbüsü və yaxından köməkliyi ilə yaradılmışdır.

Hazırda Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən ümumi sututumu 21,5 milyard kubmetr olan 135 su anbarından istifadə edilir. 19 hidroqovşaq, 51800 km suvarma kanalı, 31700 km kollektor-drenaj şəbəkəsi, 921 nasos stansiyası, 131 min müxtəlif hidrotexniki qurğu, 7279 subartezian quyusu, 2073 km-dən artıq sel və daşqınlardan mühafizə bəndi, 1025 min ha qış otlaq sahələrinin su təminatına xidmət edən digər mühüm dövlət əhəmiyyətli su təsərrüfatı sistemləri və qurğuları istismar olunur.

Ölkəmizdə meliorasiya və su təsərrüfatının inkişafına ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş diqqət və qayğı hazırda onun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Onun sahəyə diqqəti və yaxından köməkliyi sayəsində bir çox layihələr başa çatdırılmış, bəzi layihələr uğurla davam etdirilir, bir çoxlarının isə həyata keçirilməsinə başlanılmışdır.

2007-ci il noyabr ayının 8-də Taxtakörpü su anbarının, 2009-cu ilin may ayının 25-də Şəmkirçay su anbarının SES-lə birlikdə təməlqoyma, 2010-cu ilin aprel ayının 29-da Cəlilabad rayonunda tikintisi başa çatdırılmış Göytəpə su anbarının və 15 avqust 2011-ci il tarixində Vəlvələçay-Taxtakörpü kanalının 10,7 km-lik birinci mərhələsinin açılış mərasimlərində iştirak etməsi, Taxtakörpü su anbarında tikintinin gedişi ilə tanış olaraq tikinti işlərinin yüksək keyfiyyətlə başa çatdırılması üçün tapşırıq və tövsiyələrini verməsi bunun bariz sübutudur. 2011-ci il noyabr ayının 16-da Qax rayonunda Hamamçay çayı üzərində tikilmiş körpünün açılış mərasimlərində iştirak etməsi və İlisu kəndinin sel və daşqın sularından mühafizəsi üzrə aparılan sahilbərkitmə işləri ilə tanış olması, 2013-cü il iyulun 19-da Dövlət Neft Fondunun vəsaiti hesabına tikintisi başa çatdırılmış Vəlvələçay-Taxtakörpü kanalının ikinci mərhələsinin istifadəyə verilməsi və Taxtakörpü su anbarının su ilə doldurulmasına başlanılması, iyul ayının 18-də Siyəzən, 19-da Şabran şəhərlərində, 14 avqust tarixində İsmayıllı və 4 sentyabr tarixində Yardımlı şəhərlərində içməli su xəttinin və kanalizasiya şəbəkəsinin bərpası və tikintisi işlərinin birinci mərhələsinin, sentyabr ayının 28-də Taxtakörpü Su Anbarının (su elektrik stansiyası ilə birlikdə) və ondan su götürən Taxtakörpü-Ceyranbatan kanalının istifadəyə verilməsi mərasimlərində iştirak etməsi də cənab Prezidentin ölkədə meliorasiya və su təsərrüfatı sisteminin inkişafına olan ardıcıl diqqət və qayğısından xəbər verir.

Dövlətimizin başçısının sahəyə diqqət və qayğısının nəticəsi olaraq son illərdə sahəyə əsaslı kapital qoyuluşu dəfələrlə artmışdır. Bunun nəticəsində mövcud meliorasiya və irriqasiya obyektlərinin istismarı xeyli yaxşılaşmış, sistem üzrə işçilərin əmək haqqı dəfələrlə artmış, sahənin maddi-texniki bazası gücləndirilmiş, maşın və mexanizmlər alınmış, onların məhsuldarlığı 2001-ci il ilə müqayisədə 2 dəfəyə yaxın artmışdır. 2565 km suvarma kanallarının, 1719 km kollektor-drenaj şəbəkələrinin bərpası, yenidənqurulması və tikintisi işləri həyata keçirilmiş, 171,4 min hektar suvarılan torpaqların su təminatı və 178,2 min hektar sahədə torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmışdır. 30 min hektar yeni suvarılan sahələr kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, 1194 ədəd subartezian quyusu qazılmış, sel və daşqınlara qarşı dağ çaylarında 191,4 km sahilbərkitmə işləri, Kür-Araz çaylarında isə 876 km uzunluğunda bəndlərin möhkəmləndirilməsi və hündürləndirilməsi işləri yerinə yetirilmişdir.

“Samur - Abşeron suvarma sisteminin yenidənqurulması” layihəsi tərkibində 67,2 km uzunluğunda Xanarx kanalının tikintisi İslam İnkişaf Bankının maliyyələşdirməsi ilə 2006-cı ildə başa çatdırılmışdır. Xanarx kanalının istifadəyə verilməsi ilə respublikanın şimal zonasında yerləşən Qusar, Xaçmaz və Şabran rayonlarında 62,6 min hektar ərazidə sahələrin suvarma suyu ilə təminatı yaxşılaşdırılmışdır. Eyni zamanda Dünya Bankının krediti ilə Samur çayı üzərində yerləşən Baş Suqəbuledici qurğunun bərpası, Samur çayı yaxınlığında Baş su durulducunun tikintisi, Samur-Abşeron kanalının ilk 50 km-lik hissəsinin və bu hissədə yerləşən uzunluğu 185,7 km olan təsərrüfatlararası kanalların yenidənqurulması işləri 2007-ci ildə başa çatdırılmışdır.

İslam İnkişaf Bankının, Səudiyyə İnkişaf və OPEK Beynəlxalq İnkişaf Fondlarının kreditləri hesabına Samur-Abşeron kanalının 50-ci km-dən suyun Taxtakörpü su anbarına verilməsi məqsədi ilə ümumi uzunluğu 31,77 km olan Vəlvələçay-Taxtakörpü kanalının tikintisinə 2008-ci ildə başlanılmışdır. Bu kredit hesabına kanalın 10,74 km uzunluğunda birinci hissəsinin tikintisi 2011-ci ildə, Dövlət Neft Fondunun vəsaiti hesabına isə kanalın 21,03 km-lik 2-ci hissəsinin tikintisi 2013-cü ildə başa çatdırılmışdır.

Ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb edən, ümumi sututumu 268,4 milyon kubmetr olan, Dövlət Neft Fondunun vəsaiti hesabına maliyyələşdirilən Taxtakörpü su anbarının 25 MVt olan SES-lə birlikdə və ümumi uzunluğu 107,9 km olan Taxtakörpü-Ceyranbatan kanalının tikintisi 2013-cü ildə başa çatdırılmışdır.

Möhtərəm Prezidentimiz İlham Əliyev 28 sentyabr 2013-cü il tarixində Taxtakörpü su anbarının SES-lə birlikdə və Taxtakörpü-Ceyranbatan kanalının açılış mərasimində respublikamızın iqtisadiyyatında, ölkənin su təhlükəsizliyinin təmin olunmasında Taxtakörpü və Şəmkirçay su anbarlarının tikintisinin, bu istiqamətdə həyata keçirilən digər layihələrin əhəmiyyətini xüsusi olaraq qeyd etmişdir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən Dövlət Neft Fondunun vəsaiti hesabına Samur-Abşeron suvarma sisteminin yenidənqurulması layihəsinin son vacib mərhələlərindən olan şimal zonasının 6 çayından kanala əlavə su verilməsi məqsədilə cari ildə Qusarçay və Caqacuqçay çaylarında sugötürücü qurğuların və nəqledici kanalların tikintisi, Qudyalçay çayında isə nəqledici kanalın yenidənqurulması işlərinə başlanılmışdır. Eyni zamanda Şabran, Siyəzən və Xızı rayonlarında 30 min hektara yaxın yeni suvarılacaq və 25 min hektara yaxın mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması üçün layihə sənədlərinin hazırlanmasına başlanılmışdır. Xızı rayonunda 9609 hektar yeni və 2970 hektar mövcud suvarılan torpaqlarda meliorativ tədbirlərin layihə sənədləri hazırlanaraq tikinti işlərinə başlanılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2014-cü il iyulun 22-də Xızı rayonuna səfəri çərçivəsində yeni inşa olunan Taxtakörpü-Ceyranbatan kanalından suyun rayonun yeni suvarılan torpaq sahələrinə verilməsi üçün suburaxıcı qurğunun təməlinin qoyulması mərasimində iştirak etmişdir.

“Samur-Abşeron suvarma sisteminin yenidənqurulması” layihəsinə daxil olan işlərin başa çatdırılması ilə respublikanın şimal zonasında 150 min hektar suvarılan torpaqların su təminatının, Bakı, Sumqayıt şəhərlərində və Abşeron yarımadasında əhalinin, sənayenin və kənd təsərrüfatının içməli, texniki və suvarma suyuna olan tələbatının yaxşılaşdırılmasına, eləcə də 31 min hektar yeni suvarılan torpaqların kənd təsərrüfatı dövriyyəsinə verilməsinə, layihə ərazisində ekoloji vəziyyətin yaxşılaşdırılmasına, Taxtakörpü su anbarında inşa olunan su elektrik stansiyasında il ərzində 128 milyon kvt/saat enerjinin istehsal olunmasına və kanal üzərindəki mövcud Sitalçay və Ceyranbatan nasos stansiyalarının ləğv edilməsi ilə ildə 13-15 milyon manatdan artıq elektrik enerjisinə qənaət edilməsinə imkan yaranacaqdır.

Tikintisinə 2009-cu ildə başlanılmış Şəmkirçay üzərində ümumi sututumu 164,5 milyon kbm olan Şəmkirçay su anbarının Su Elektrik Stansiyası ilə birlikdə inşası başa çatdırılmış və möhtərəm Prezidentimiz İlham Əliyev onun 15 noyabr 2014-cü il tarixində keçirilmiş açılış mərasimində iştirak etmişdir. Layihənin həyata keçirilməsi ilə Şəmkir, Göygöl, Samux və Goranboy rayonlarının 54 min hektara yaxın mövcud suvarılan torpaqlarının su təminatının yaxşılaşdırılması və 17 min hektara yaxın yeni sahələrin istifadəyə verilməsi, eləcə də Gəncə və Şəmkir şəhərlərinin, Samux rayonunun Nəbiağalı qəsəbəsinin əhalisinin saniyədə 1,6 kbm içməli su ilə təmin edilməsi mümkün olacaqdır.

Dünya Bankının krediti hesabına Səhmdar Cəmiyyəti tərəfindən respublikanın 8 rayonunda (Şabran, Siyəzən, Ağsu, İsmayıllı, Masallı, Lerik, Yardımlı, Cəlilabad) içməli su təchizatı və kanalizasiya sistemləri infrastrukturunun bərpası və tikintisi işləri hazırda uğurla davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılmış vəsait hesabına son 2 ildə respublikanın 33 rayonunun 320 yaşayış məntəqəsində əkin və həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 427 ədəd subartezian quyusu istifadəyə verilmişdir. Qazılmış subartezian quyuları vasitəsi ilə 7440 hektar torpaq sahəsinin su təminatı yaxşılaşdırılmış, əhalinin içməli və kommunal-məişət suyuna olan tələbatı ödənilmişdir.

Ölkə əhalisinin daxili istehsal hesabına çörək və çörək məhsulları ilə təmin edilməsi məqsədi ilə iri taxılçılıq təsərrüfatlarının yaradılması barədə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin verdiyi tapşırığın icrası olaraq 2012-ci ildə Yuxarı Mil kanalının 10,7 km-lik hissəsinin tikintisi ilə Beyləqan və Ağcabədi rayonları ərazilərində 4800 hektar, 2013-cü ildə 4,75 km-lik hissəsinin nasos stansiyası ilə birlikdə tikintisi, 2,3 km-lik hissəsinin yenidənqurulması ilə Füzuli və Ağcabədi rayonlarının ərazilərində 4000 hektar sahədə, eyni zamanda Hacıqabul magistral kanalının 4,3 km-lik hissəsinin tikintisi ilə Hacıqabul rayonu ərazisində 1625 ha sahədə taxılçılıq təsərrüfatları yaradılmışdır. Cari ildə Sabirabad (14397 hektar) və Biləsuvar (1682 hektar) rayonlarında yerləşən qış otlaqlarında meliorativ tədbirlərin aparılması üçün beynəlxalq layihə şirkəti tərəfindən layihə sənədlərinin hazırlanmasına başlanılmışdır.

“2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nın həyata keçirilməsi ilə bağlı Abşeron magistral kanalının 20 km-lik hissəsində yenidənqurma işləri aparılmışdır. Xəzər, Sabunçu, Suraxanı və Abşeron rayonlarının qəsəbə və kəndlərinin 2917 hektar əkin və həyətyanı sahələrinin su təminatının yaxşılaşdırılması və 2146 hektar yeni suvarılan sahələrin istifadəyə verilməsi üçün nasos stansiyalarının, suyığıcı hovuzların və suvarma boru kəmərlərinin tikintisi və təmir-bərpası üzrə işlər yerinə yetirilmişdir. Cari ildə “2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nın həyata keçirilməsi ilə bağlı Abşeron magistral kanalında yenidənqurma işləri davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə təsdiq edilmiş Dövlət proqramları və tədbirlər planlarında meliorasiya və su təsərrüfatı sahəsi üzrə geniş tədbirlər nəzərdə tutulmuşdur. Hazırda “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nda, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı”nda və digərlərində icrası Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə aid olan tədbirlərin bir hissəsi artıq yerinə yetirilmiş, digərləri də müvəffəqiyyətlə həyata keçirilməkdədir.

Ötən ilin mürəkkəb təbii-iqlim şəraitinə baxmayaraq, öz daxili imkanlarını səfərbər edərək Cəmiyyət üzərinə düşən vəzifələri yerinə yetirmiş, balansında olan irriqasiya və meliorasiya sistemlərinin, hidrotexniki qurğuların istismarını təmin etmiş, müvafiq təmir-bərpa işlərini həyata keçirmişdir.

Mühüm dövlət əhəmiyyətli su təsərrüfatı obyektlərində, Yuxarı Xanbulançay sol sahil magistral kanalındakı dükerdə, Əyriçay su anbarının beton üzlüklü bəndində, Viləşçay su anbarının irriqasiya suburaxıcı qurğusunda, Ağstafaçay sol sahil, Yeni Xanqızı, Baş Muğan, Tərtərçay sol sahil magistral kanallarında, Yuxarı Qarabağ kanalının Aşağı Portal baş qurğusunda və Kürəkçay səviyyə qaldırıcı qurğusunda, Yuxarı Şirvan kanalının Göyçay çay dükerində, Cənubi Muğan və Şəmkir maşın kanalının qurğularında, Saatlı rayonunda Sabir və Aşağı Muğan kanallarında, Sabirabad rayonunda Gümüş kanalında, Qusar rayonunda Cağar-Cibir kanalının baş qurğusunda, Kürdəmir rayonunda R-15 kanalında, Baş Mil-Muğan, K-1, K-2 və Sağ Sahil kollektorları üzərində 7 ədəd körpüdə, Neftçala, Salyan, Hacıqabul, Sabirabad, Kürdəmir və Ucar rayonlarında Muğan-Salyan və Baş Şirvan kollektorlarına su vuran Xolqarabucaq, Orta Akuşa, Şimal-2, K-2, Muradbəyli, Zəngən, K-3 və Həbibi nasos stansiyalarında, Salyan rayonunda Baş Mil-Muğan kollektoru üzərindəki dükerdə, Saatlı rayonunda Sağ Sahil kollektorunun Baş Mil-Muğan kollektoruna tökülən hissəsindəki sudüşürəndə, 52 ədəd tərpənməz və 19 ədəd üzən nasos stansiyasında, 91 ədəd subartezian quyusunda, İsmayıllı, İmişli, Yevlax, Kürdəmir, Şamaxı, Füzuli və Xızı rayonlarının ərazisində 4536 poqonmetr nov kanallarda, ayrı-ayrı rayonların qış otlaq sahələrində 14,6 km uzunluğunda müxtəlif ölçülü boru kəmərlərdə, dağ çaylarında 1673 poqonmetr daş-beton mühafizə bəndlərdə, bir sıra digər obyektlərdə əsaslı təmir, bərpa və yenidənqurma işləri həyata keçirilmişdir.

Kür çayı boyunca Ağcabədi, Sabirabad, Hacıqabul, Salyan, Neftçala, İmişli rayonları və Şirvan şəhəri ərazisində təhlükəli döngələrdə 2445 poqonmetr uzunluğunda daştökmə yolu ilə sahilbərkitmə işləri aparılmış, Kür, Araz və onlara qovuşan dağ çayları boyunca salınmış torpaq mühafizə bəndlərinin 88,7 km məsafəsində möhkəmləndirmə işləri görülmüşdür. Kür çayının uçquna meyilli sahillərində 234 km məsafədə qayakəsmə tədbirləri, 4470 kubmetr həcmində daş-betonitlərlə və 4330 kbm həcmində faşınla sahilbərkitmə işləri yerinə yetirilmişdir.

Respublika üzrə bütün kənd təsərrüfatı bitkiləri 1361,4 min hektar sahədə orta hesabla 3,2 dəfə suvarılmış, o cümlədən taxıl 568967 hektarda 2,3 dəfə, pambıq 23003 hektarda 2,9 dəfə, tütün 1162 hektarda 4,0 dəfə, yem bitkiləri 449296 hektarda 3,6 dəfə, bostan-tərəvəz 73023 hektarda 4,4 dəfə, çoxillik əkmələr 88498 hektarda 3,1 dəfə və həyətyanı sahələr 157471 hektarda 4,6 dəfə suvarılmışdır.

Əkinçilikdən yüksək və sabit məhsuldarlıq götürülməsi üçün su təminatı ilə yanaşı, torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üzrə müvafiq tədbirlərin görülməsi də vacib amildir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarı təminatına dair Dövlət Proqramı”nda “Eroziyaya uğramış, şoranlaşmış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqların müəyyən edilməsi və xəritələşdirilməsi, onlardan səmərəli istifadə olunması ilə bağlı təkliflərin hazırlanması” nəzərdə tutulmuşdur. İcra nəticəsi olaraq keçmiş Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi respublikanın kənd təsərrüfatına yararlı 4557,4 min hektar sahədə torpaqların şorlaşma məlumatlarını hazırlamışdır.

Səhmdar Cəmiyyəti bu məlumatlardan istifadə etməklə, eləcə də qrunt sularının səviyyəsinin yer səthinə yaxın olan (1 m-ə qədər) ərazilərdə torpaqdan nümunələr götürməklə onun duzluluğunun dəqiqləşdirilməsi əsasında torpaqların şorlaşması barədə korrektə edilmiş məlumatlar hazırlamışdır.

Korrektə edilmiş duzluluq məlumatlarına görə 01 yanvar 2015-ci il tarixinə 1435 min ha suvarılan sahənin 1083,6 min hektarı (75,5%) şorlaşmamış, 199,3 min hektarı (13,9%) zəif, 106,3 min hektarı (7,4%) orta, yalnız 45,8 min hektarı (3,2%) əkinlərin məhsuldarlığına 10-15%-ə qədər təsir edə bilən ayrı-ayrı ləkələr şəklində şiddətli dərəcədə şorlaşmışdır.

Qeyd etmək lazımdır ki, torpaqların intensiv suvarılması fonunda şorlaşma məsələləri ciddi təhlükə yaratmır. Əksinə, son illər torpaqlardan tam və səmərəli istifadə olunması, təkrar əkinlərin həcminin artırılması, çox su sevən və yer səthini kölgələndirən bitkilərə geniş yer verilməsi hesabına suvarılan torpaqlarda duzların bioloji yuyulması prosesi getmiş, 2001-ci illə müqayisədə güclü şorlaşmış torpaq sahələri 69,5 min ha, orta şorlaşmış torpaq sahələri 57,1 min ha, zəif şorlaşmış torpaq sahələri 68,1 min hektar azalmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında cənab Prezident bu ilin “Kənd təsərrüfatı ili” elan edildiyini, ölkədə ərzaq təhlükəsizliyinin birinci məsələ olduğunu, kənd təsərrüfatının inkişafı üçün çox ciddi tədbirlər görüldüyünü, islahatların aparıldığını, son illər suvarmaya, meliorasiyaya çox böyük diqqət göstərildiyini bildirmişdir. Ölkə əhalisinin ərzaqla təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq üçün kənd təsərrüfatı məhsulları istehsalının artırılması məqsədi ilə yeni sahələrin əkin dövriyyəsinə cəlb edilməsi, yeni suvarma kanallarının çəkilməsi, torpaqların elektron uçotunun aparılması ilə bağlı Səhmdar Cəmiyyəti qarşısında mühüm vəzifələr qoyulmuşdur.

Bu vəzifələrin vaxtında və keyfiyyətlə icra edilməsi məqsədi ilə Səhmdar Cəmiyyəti tərəfindən bütün lazımi tədbirlər uğurla həyata keçirilir.

2015-ci ildə kənd təsərrüfatı bitkilərinin vegetasiya suvarmasının mütəşəkkil keçirilməsi və respublikanın çaylarında baş verə biləcək sel və daşqın sularının maneəsiz axıdılması ilə əlaqədar müvafiq tədbirlər görülür.

Cəmiyyət tərəfindən magistral kanallar üzrə su bölgüsü limitləri, respublikanın çayları üzrə suvarma dövründə rayonlararası su bölgüsü cədvəlləri hazırlanaraq təsdiq edilmiş, bütün istismar təşkilatlarında gecə-cündüz növbətçilik yaradılmışdır. Vegetasiya suvarmasının mütəşəkkil həyata keçirilməsi, sudan səmərəli və qənaətlə istifadənin təmin edilməsi və su limitlərinə nəzarətin gücləndirilməsi məqsədi ilə Cəmiyyətin mütəxəssisləri ayrı-ayrı obyektlərə təhkim edilmiş, çayların gursululuq dövründə su anbarlarının doldurulması və yarana biləcək sel və daşqın sularının maneəsiz axıdılması üçün bütün təxirəsalınmaz tədbirlər görülmüşdür.

Hazırda respublikanın su anbarlarında 14,6 milyard kubmetr su yığışmışdır, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,8 milyard kubmetr çoxdur. Mingəçevir, Şəmkir, Araz su anbarlarında ötən ildəkindən artıq su toplanmış, Ağstafa, Qazax, Tovuz və Şəmkir rayonlarının əkin sahələrinə xidmət edən Ağstafaçay su anbarında ötənilki dövrlə müqayisədə 66,2 milyon kubmetr artıq su yığılmış, ötən il istifadəyə verilmiş Şəmkirçay su anbarında 57,0 milyon kubmetr su toplanmış, Qazax rayonu ərazisində yerləşən Coqazçay su anbarı tam həcmdə doldurulmuşdur.

Toplanmış su kənd təsərrüfatı bitkilərinin vegetasiya suvarmasını aparılmasına imkan verməklə yanaşı, su anbarlarında olan ehtiyat həcm sel və daşqın vaxtı onların doldurulması üçün şərait yaradacaqdır.

Sudan istifadə planına əsasən, 2015-ci ildə ümumilikdə 1363689 hektar sahədə kənd təsərrüfatı bitkilərinin, o cümlədən 536426 ha sahədə taxıl, 24197 ha sahədə pambıq, 1094 ha sahədə tütün, 468414 ha sahədə yem bitkiləri, 77320 ha sahədə bostan-tərəvəz, 97356 ha sahədə çoxillik bitkilər və 158881 ha həyətyanı sahələrin vegetasiya suvarılması nəzərdə tutulmuşdur. 01 aprel 2015-ci il tarixə 518077 hektar sahədə taxıl orta hesabla 1,3 dəfə suvarılmışdır. Suvarma işləri hazırda da davam etdirilir.

Suvarma mövsümündə hazırlıqla əlaqədar Səhmdar Cəmiyyətin yerli istismar idarələri tərəfindən 3315 hidrotexniki qurğu, 572 hidropost, 135 nasos, 137 elektrik və dizel mühərriki, 2750 subartezian nasosu, suvarma və kollektor-drenaj şəbəkələrində 28950 milyon kubmetr həcmində lildəntəmizləmə işləri aparılmışdır.

Çay məcralarında 3,2 milyon kubmetr həcmində məcrətəmizləmə işləri aparılmış, 2,6 milyon kubmetr şax-daş və faşın bəndlər quraşdırılmış, daş-beton bəndlərdə 4,1 min kubmetr həcmində təmir işləri görülmüşdür.

Əkin sahələrinin su təminatının və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün cari ildə mühüm dövlət əhəmiyyətli su təsərrüfatı obyektlərində, Tərtər rayonunda 3 min hektar əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün R-8-1 kanalının 1300 pm məsafəsinin beton üzlüyə alınması, Şəki rayonu ərazisində 8405 hektar sahəni su ilə təmin edən nasos stansiyasının binasının təmiri, Ağstafa və Tovuz rayonlarının 43,5 min hektar suvarılan sahəsini su ilə təmin edən sağ sahil kanalının 4 min poqonmetr məsafəsində beton üzlüyə alınması, Saatlı və Sabirabad rayonlarının 70,0 min hektar sahəsini su ilə təmin edən Baş Muğan kanalında 380 poqonmetr məsafədə yamaclığın betonitlərlə möhkəmləndirilməsi və üzərindəki körpünün təmiri, Yuxarı Şirvan kanalının Göyçay rayonu ərazisindəki Dəvəbatan dükerinin təmiri və Kürdəmir rayonu ərazisində kanalın beton üzlüyə alınması, Samur çayında sudurulducu qurğunun mühafizəsi üçün 200 poqonmetr uzunluğunda beton üzlüklü dambanın təmiri, Biləsuvar və Cəlilabad rayonlarının 65,0 min hektar sahəsini su ilə təmin edən Yeni Cənubi-Muğan kanalı üzərindəki Baş qurğusunun və 3 ədəd səviyyəqaldırıcı qurğuların təmiri, Beyləqan və Ağcabədi rayonlarının əkin sahələrini su ilə təmin edən Yeni Xanqızı kanalının 400 poqonmetr məsafəsinin beton üzlüyünün təmiri, Şəmkir və Samux rayonlarının 10,0 min hektar sahəsinə su verən sağ sahil maşın qolu kanalının 600 poqonmetr məsafəsində beton üzlüyünün təmiri, Ağdaş rayonunun 16,9 min hektar əkin sahəsinə xidmət edən Sağ sahil kanalında, Cəlilabad rayonunda R-7 kanalında, 39 ədəd tərpənməz və 12 ədəd üzən nasos stansiyasında, 81 ədəd subartezian quyusunda, 30,5 km beton kanallarda, İsmayıllı, İmişli, Yevlax, Kürdəmir, Sabirabad, Hacıqabul, Neftçala, Şamaxı, Füzuli və Xızı rayonlarının ərazisində 6400 poqonmetr nov kanallarda, dağ çaylarında 2050 poqonmetr daş-beton mühafizə bəndlərdə və bir sıra digər obyektlərdə əsaslı təmir və bərpa işlərinin həyata keçirilməsi, Kür çayının təhlükəli döngələrində yumaya meyilli sahillərində 1988 pm məsafədə sahilbərkitmə işləri, o cümlədən Sabirabad rayonunun Əsgərbəyli, Dadaşbəyli və Qəzli kəndlərinin ərazilərində 723 poqonmetr, Şirvan şəhər Bayramlı qəsəbəsində 100 metr məsafədə, Salyan rayonunun Təzəkənd, Babazanlı və Salyan şəhər ərazilərində 500 metr məsafədə, Neftçala rayonu Aşağı Surra, Beşdəli, Cəngən, Qardaşbəyli və Bala Surra kəndləri ərazilərində 107 pm məsafədə sahilbərkitmə işləri görülməsi nəzərdə tutulmuş və bu işlərin icrası uğurla davam etdirilir.

Hazırda Yuxarı Xanbulançay su anbarının bəndindəki qülləli suburaxıcının tunelində və onun qurğularında təmir işləri davam etdirilir. Bundan əlavə su anbarından çıxan sol sahil kanalının üzərindəki akvedukunda və Lənkəran rayonu “Yaşıl çayı” fermer təsərrüfatının 100 hektar sahəsini su ilə təmin edən nasos stansiyasının və boru kəmərlərinin təmir işləri aparılır.

Hazırda Xaçmaz rayonunun sərhəd ərazisində yerləşən 1350 hektar əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədi ilə Yalama beton kanalının üzərindəki qurğularla birlikdə təmiri işləri yerinə yetirilir.

Sabirabad rayonunun Moranlı, Balahəşimxanlı, Sarxanbəyli, Çöl Beşdəli, Ələmbəyli və digər kəndlərinin 3780 hektar əkin sahələrinin su təminatına və əhalinin məişət su tələbatının ödənilməsinə xidmət edən Sabir kanalını qidalandıran 1989-cu ildən istifadədə olan, gövdəsi korroziyaya uğramış, Kür çayı üzərində yerləşən Vlaqa-3 üzən nasos stansiyasının əvəzinə, daha yüksək məhsuldarlığa malik yeni iki ədəd 4 aqreqatlı üzən nasos stansiyasının quraşdırılması işləri həyata keçirilir.

Suvarılan ərazilərdən drenaj sularının kənarlaşdırılmasını sürətləndirmək və qrunt sularının səviyyəsini aşağı salmaq məqsədi ilə Ağcabədi rayonunda K-33, Sabirabad rayonunda K-1-1, Beyləqan rayonunda K-2 və K-2-1, Saatlı rayonunda LK və SD, Ağdaş rayonunda S-2 və S-2-1, Bərdə rayonunda 19 QD-5, Yevlax rayonunda S8-QD-4, Ucar rayonunda UK-2 və UK-3, İmişli rayonunda S-1, S-1-2 və S-10 kollektorlarının və onların üzərində 15 ədəd sukeçirənin, Baş Şirvan kollektorunun Türyançay çayı ilə kəsişməsindəki dükerin, Neftçala rayonunda Küryanı, Salyan rayonunda Şimali-Akuşa və Yeni Muğan, Kürdəmir rayonunda K-5 suötürən nasos stansiyalarının bərpası nəzərdə tutulmuşdur.

Nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi göstərilən kollektorların suburaxma qabiliyyətinin iki dəfəyə yaxın artırılmasına şərait yaradacaq, suvarılan ərazilərdən drenaj sularının kənarlaşdırılması sürətlənəcək, qrunt sularının səviyyəsi nəzərəçarpacaq dərəcədə aşağı düşəcək. Ağcabədi rayonunun Təzəkənd, Pərioğlular, Şənlik, Cəfərbəyli, Ağabəyli, Nərimanov kəndlərinin 7620 hektar, Sabirabad rayonunun Kürqırağı Muradbəyli bələdiyyəsinin 2410 hektar, Beyləqan rayonunun Kəbirli, Tatallar, Eyvazalılar, Bahar, Qəhramanlı, Mayak, Dünyamalılar, Binnətli, Gödəklər, I-Şahsevən, II-Şahsevən, Yuxarı Çəmənli və Xalac kəndlərinin 25733 hektar, Saatlı rayonunun Dədə Qorqud və Mustafabəyli inzibati ərazi vahidliyinin 4225 hektar, Ağdaş rayonunun Mürsəl bələdiyyəsinin 2316 hektar, Ucar rayonunun Türkəci bələdiyyəsinin 2428 hektar, Bərdə rayonunun Mollalı bələdiyyəsinin 3226 hektar, Yevlax rayonunun Səmədabad və Nərimanabad ərazi vahidliyinin 5250 hektar, İmişli rayonunun Çahar, Gövhərli, Soltanmuradlı, Nurulu, Qaralar, Muradallı, Otuzikilər, Xoşçobanlı, Qaragüvəndikli, Boşçalar, Şahverdililər, Rəhimli, Çobantala, Yalavac, Vətağa kəndlərinin 9010 hektar (cəmi 62218 hektar) meliorsiya olunmuş ərazilərin meliorativ vəziyyəti yaxşılaşdırılacaq, onların təkrar şorlaşmasının qarşısı alınacaq, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı yüksəldiləcəkdir.

Baş Şirvan kollektorunun Turyançay çayı ilə kəsişməsindəki dükerin bərpası Ağdaş rayonunun suvarılan ərazilərindən drenaj sularının aqrotexniki müddətlərdə və maneəsiz kənarlaşdırılmasını təmin edəcək, rayonun 23 min hektar meliorasiya olunmuş ərazilərində torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasını təmin edəcəkdir.

Küryanı, Yeni Muğan, Şimali-Akuşa və K-5 suötürən nasos stansiyalarının əlavə nasos aqreqatları quraşdırmaqla bərpası onların məhsuldarlığının nəzərəçarpacaq dərəcədə artırılmasını, Neftçala rayonunun Aşağı Sura, Kürqarabucaq, I-Qaralı, Qədimkənd, Aşağı Qaramanlı, Astanlı kəndlərinin 6284 hektar, Salyan rayonunun Çuxanlı, Pratman Gəncəli, Parçaxalac, Seydan, Yenikənd, Qarabağlı kəndlərinin 7016 hektar, Kürdəmir rayonunun Öyləqulu, Mehdili, Dayıkazımlı, Qarabucaq, Məhərrəmli, Çölqubalə, Ərəbqubalı və Qoçulu kəndlərinin 5200 hektar meliorasiya olunmuş ərazilərindən drenaj sularının vaxtında və maneəsiz axıdılmasını təmin edəcək, torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına və məhsuldarlığının artırılmasına şərait yaradacaqdır.

Hazırda 749 ədəd ekskovator və 320 ədəd buldozer cəlb edilməklə suvarma, kollektor-drenaj şəbəkələrində, çay məcralarında təmizləmə və digər təmir işləri həyata keçirilir.

Aparılan təmir və bərpa işləri əvvəlki illərdə olduğu